# Musiqi

Dərslik



2

LAYİHƏ

 

# Azərbaycan Respublikasının Dövlət Himni

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

OQTAY RƏCƏBOV
NAZİM KAZIMOV
REYHAN HACIZADƏ

# MUSİQİ
# 2

*Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Musiqi fənni üzrə*

## DƏRSLİK

© Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi tehsil_az@yahoo.com və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

LAYİHƏ

*Dostlar, bu dərslik sizi əsrarəngiz musiqi aləminə səyahətə aparacaq. Onun şən və əyləncəli notlarla dolu dünyasında siz gözəlliyi sevməyi və ondan zövq almağı öyrənəcəksiniz.*

*Sizə uğurlar!*



***Üzeyir bəstəsində,***
***Muğam əhatəsində,***
***Yeddi notun səsində,***
***Yaranır hər musiqi,***
***Do, re, mi, fa, sol, lya, si.***

## Şərti işarələr

- ***- Yeni mövzu***
- ***- Oxuyaq***
- ***- Dinləyək***
- ***- Sual və tapşırıqlar***

LAYİHƏ

# I bölmə

# Azərbaycan mənim Vətənimdir



LAYİHƏ

# 1 Melodiya

Şəkillərdə təbiət hadisələri təsvir olunub.
Bu hadisələr zamanı yaranan səslər qeyri-musiqi səsləridir.
Bəstəkarlar bu qeyri-musiqi səslərini notlara
çevirəndə melodiya alınır.



***Şimşəyin gurultusu***



***Yağışın şırıltısı***



***Dənizin uğultusu***



***Küləyin vıyıltısı***

**MELODİYA** – musiqi əsərinin əsasını təşkil edən mühüm ifadə vasitəsidir.




LAYİHƏ

## *Cücələrim*

*Musiqisi Qəmbər Hüseynlinin,*
*sözləri Tofiq Mütəllibovundur.*



***Cücələrim***

Mahnının melodiyasını "la" hecası ilə ifa edin.

### Sual və tapşırıqlar

1. Təbiət səslərini müşahidə edərkən hansı hissləri keçirirsiniz?
2. "Cücələrim" mahnısının melodiyasını yada salaraq "la" hecası ilə ifa edin.

LAYİHƏ

2

# Mahnıda söz

Mahnı – söz və melodiyanın birləşməsindən yaranır. Mahnının sözlərini ***şair*** yazır, musiqisini ***bəstəkar*** bəstələyir.



***Sülh göyərçiniyik biz***

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Zahid Xəlilindir.*

LAYİHƏ

# *Cücələrim*

*Musiqisi Qəmbər Hüseynlinin,*
*sözləri Tofiq Mütəllibovundur.*



*Cip-cip cücələrim,*
*Cip-cip-cip-cip cücələrim.*
*Mənim qəşəng cücələrim,*
*Tükü ipək cücələrim.*



**I**

*Gözləyirəm tez gəliniz,*
*Göy çəməndə dincəliniz.* } *2 dəfə*

***Nəqərat:***
*Ay mənim cücələrim,*
*Ay mənim cücələrim,* } *2 dəfə*
*Mənim qəşəng cücələrim.*
*Cip-cip cücələrim,*
*Cip-cip-cip-cip cücələrim.*
*Mənim qəşəng cücələrim,*
*Tükü ipək cücələrim.*

**II**

*Nə yesəniz mən verərəm,*
*Su verərəm, dən verərəm.* } *2 dəfə*

***Nəqərat:***

**III**

*Arzum budur boy atasız,*
*Ananıza tez çatasız.* } *2 dəfə*

***Nəqərat:***



## Sual və tapşırıqlar

1. Mahnının sözlərini kim yazır?
2. Mahnının musiqisini kim bəstələyir?
3. "Sülh göyərçiniyik biz" mahnısında sülh rəmzi kimi hansı quş haqqında danışılır?
4. "Cücələrim" mahnısını sözləri ilə ifa edin.



LAYİHƏ

3

# Salam, mənim Vətənim!



LAYİHƏ

Biz Vətənə həsr olunmuş mahnıları həvəslə ifa edirik. Belə mahnılardan biri də xanəndə Xan Şuşinskinin "Şuşanın dağları" mahnısıdır. Mahnıda Şuşa şəhərinin gözəllikləri təsvir olunur.

***"Şuşanın dağları"***

*Musiqisi və sözləri Xan Şuşinskinindir.*





## AZƏRBAYCAN

*Aşıq mahnısı*

El bilir ki, sən mənimsən, } *2 dəfə*
Yurdum, yuvam, məskənimsən. } *2 dəfə*
Anam doğma Vətənimsən! } *2 dəfə*
Azərbaycan, Azərbaycan,
Yaşa, yaşa, Azərbaycan!
Ay anam, Azərbaycan!

### Sual və tapşırıqlar

**1.** "Şuşanın dağları" mahnısında Şuşa şəhərinin gözəllikləri hansı sözlərlə təsvir olunur?
**2.** "Azərbaycan" mahnısı hansı alətlə ifa edilir?
**3.** "Azərbaycan" mahnısını ifa edin.
**4.** Vətənimiz Azərbaycana aid şəkil çəkin.



LAYİHƏ



# Himn

## Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

***Azərbaycan! Azərbaycan!***
***Ey qəhrəman övladın şanlı Vətəni!***
***Səndən ötrü can verməyə cümlə hazırız!***
***Səndən ötrü qan tökməyə cümlə qadiriz!***
***Üçrəngli bayrağınla məsud yaşa!***
***Minlərlə can qurban oldu!***
***Sinən hərbə meydan oldu!***
***Hüququndan keçən əsgər,***
***Hərə bir qəhrəman oldu!***

***Sən olasan gülüstan,***
***Sənə hər an can qurban!***
***Sənə min bir məhəbbət***
***Sinəmdə tutmuş məkan!***

***Namusunu hifz etməyə,***
***Bayrağını yüksəltməyə***
***Cümlə gənclər müştaqdır!***
***Şanlı Vətən! Şanlı Vətən!***
***Azərbaycan! Azərbaycan!***



LAYİHƏ

Azərbaycan Respublikasının 3 dövlət rəmzi var.

1. **Bayraq**  2. **Gerb**  3. **Himn** 



## *Azərbaycan Respublikasının Dövlət Himni*



### Sual və tapşırıqlar

1. Himn nədir?
2. Azərbaycan Dövlət Himnini ifa edin.
3. Azərbaycan Dövlət Himnini ifa edərkən hansı hissləri keçirirsiniz?



LAYİHƏ

# Mahnıların müəllifləri

## *Azərbaycan Respublikasının Dövlət Himni*



**Əhməd Cavad**
*(şair)*



**Üzeyir Hacıbəyli**
*(bəstəkar)*



## *Cücələrim*





**Tofiq Mütəllibov**
*(şair)*



**Qəmbər Hüseynli**
*(bəstəkar)*

LAYİHƏ

# II bölmə

# Sehrli dünya



LAYİHƏ

# Fortepiano aləmi






**DİNAMİKA** – musiqi səslənməsinin gücüdür.

Səsin gücünü təyin etmək üçün müxtəlif işarələr var. Bunlar dinamik işarələr adlanır. Fortepiano alətinin adı məhz iki dinamik işarənin forte **-f** **(güclü səslənmə)** və piano **-p** **(zəif səslənmə)** birləşməsindən yaranıb. Fortepiano dilli alətdir. Onun dilləri ağ və qara rəngdə olur.




LAYİHƏ



Bəstəkar Asəf Zeynallı uşaqlar üçün "Kuklaların yürüşü" adlı **fortepiano pyesi*** yazıb. Bu fortepiano pyesində müxtəlif maraqlı hadisələr öz əksini tapır.

## *Kuklaların yürüşü*

*Fortepiano pyesi*
*Asəf Zeynallı*



## *Tut məni, tut*

*Musiqisi Asya Sultanovanın,*
*sözləri Teymur Elçinindir.*



**I**

Gizlənirəm gözünü yum,
Yerimi tap, dalımca cum.
Tut məni, tut məni!

**II**

Gizlənmişəm gözünü aç,
Gücün çatsa, dalımca qaç.
Tut məni, tut məni!

### Sual və tapşırıqlar

1. Fortepianonun dilləri hansı rənglərdə olur?
2. Forte (f) və piano (p) dinamik işarələri biri-birindən nə ilə fərqlənir?



***fortepiano pyesi** – fortepiano üçün yazılmış kiçikhəcmli musiqi əsəri

LAYİHƏ

6

# Musiqi notlarını tanıyaq

"Play market"ə bu ardıcıllıqla daxil olub, əsas musiqi notlarını səsləndirək.




 – ***kaman açarı***  – ***bas açarı***




## Sual və tapşırıqlar

1. Musiqidə neçə əsas not var?
2. "Play market"ə daxil olun. Not sətirlərindəki notları çalın və səsli ifa edin.



LAYİHƏ

# Gəzinti

İnsan gəzir, qaçır, idmanla və rəqslə məşğul olur. Musiqidə də insanların həyatında olduğu kimi, müxtəlif hərəkət sürətləri var. Bunlara **temp** deyilir.






## *Zərb alətlərində müxtəlif templi ritmlər*

**TEMP** – musiqi əsərinin ifa sürətidir.

## *İdman*

*Musiqisi Oqtay Zülfüqarovun,*
*sözləri Teymur Elçinindir.*



**I**

Kim sevirsə idmanı,
Bir, iki, üç, dörd.
Poladdan olar canı,
Bir, iki, üç, dörd.

**II**

İdmanı sevirik biz,
Bir, iki, üç, dörd.
Bərkiyir bədənimiz,
Bir, iki, üç, dörd.



### Sual və tapşırıqlar

1. Musiqinin ifa sürəti necə adlanır?
2. "İdman" mahnısının sədaları ilə idman hərəkətləri edin.



LAYİHƏ

8

# Ritmsiz musiqi yoxdur

Bütün canlıların və cansızların həyatında ritm olduğu kimi, musiqidə də müxtəlif **ritmlər** var.






***Nəlbəki***

*Azərbaycan xalq rəqsi*

**RİTM** – müəyyən zaman daxilində müxtəlif uzunluqlu səslərin ardıcıl əvəzlənməsidir.



"Nəlbəki" rəqsini qızlar ifa edir. İfa zamanı əllərin 3-cü barmağına üskük taxılır. Rəqs üsküyü nəlbəkiyə toxundurmaqla ifa edilir.

LAYİHƏ

# *Nağara*

*Musiqisi Oqtay Zülfüqarovun,*
*sözləri Abdulla Şaiqindir.*

**I**

Nağaramı çalıram,
Dum-bolo-bom,
Dum-bolo-bom.
Hər yana səs salıram,
Dum-bo-lo, dum-bo-lo-bom.



***Nəqərat:***
Dum-bo-lo-bo-lo,
Dum-bo-lo,
Dom-dom-dom.

**II**

Hamı məni dinləyir,
Dum-bolo-bom,
Dum-bolo-bom.
Sevinclə rəqs eləyir,
Dum-bolo, dum-bolo-bom.



## Sual və tapşırıqlar

1. Musiqidə ritm nədir?
2. "Nəlbəki" rəqsi hansı xalqa məxsusdur?
3. "Nağara" mahnısında nağaranın səsi hansı sözlərlə ifadə olunur?



LAYİHƏ

9

# Azərbaycan xalq rəqsləri



Cəngi



Naz eləmə



Yallı

LAYİHƏ

Çox qədimlərdə el sənətçilərinin, musiqiçilərin ifasında səslənərək bu günümüzə gəlib çatan rəqslərimiz var. Bu rəqslər müxtəlif hərəkət elementlərindən ibarətdir. Rəqs hərəkətləri sağlamlığımız üçün faydalıdır.

## *Naz eləmə*

*Azərbaycan xalq rəqsi*

## *Mahnı və rəqs*

*Musiqisi Cahangir Cahangirovun, sözləri Mirmehdi Seyidzadənindir.*

**I**

Ölkəmizin bizik bəxtiyar nəsli,
Oynamağa həvəsli, həvəsli.
Ay uşaqlar, gəlin verək əl-ələ,
Oynayaq biz bax belə-belə.

**II**

Bağçamızda gülümsəyir gül-çiçək,
Qəlbimizdir sevincək, sevincək.
Vətən bizi öz qoynunda bəsləyir,
Gələcəyə bizi səsləyir.

**III**

Cərgələnək, bayraqları yelləyək,
Gəlin, şənlik eyləyək, eyləyək.
Hər tərəfə yayılsın bu nəğməmiz,
Səsimizdən gurlasın dəniz.



### Sual və tapşırıqlar

1. Doğru olanı tapın və deyin: Musiqi+hərəkət=?
   **a)** mahnı **b)** şeir **c)** rəqs
2. "Mahnı və rəqs" mahnısında hansı sətirlər insanları birlikdə rəqs etməyə çağırır?



LAYİHƏ

# Mahnıların müəllifləri

## Tut məni, tut



**Teymur Elçin**
*(şair)*



**Asya Sultanova**
*(bəstəkar)*





## İdman



**Teymur Elçin**
*(şair)*



**Oqtay Zülfüqarov**
*(bəstəkar)*

## Nağara



**Abdulla Şaiq**
*(şair)*



**Oqtay Zülfüqarov**
*(bəstəkar)*





## Mahnı və rəqs



**Mirmehdi Seyidzadə**
*(şair)*



**Cahangir Cahangirov**
*(bəstəkar)*

LAYİHƏ

# III bölmə

# Qızılı payız



LAYİHƏ

# 10

# Təbiət və musiqi

Təbiətdə 4 fəsil var: payız, qış, yaz, yay. Şairlər bu fəsillər haqqında şeirlər yazıb, bəstəkarlar isə bu şeirlərə mahnılar bəstələyib.






***Payız***
*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Əjdər Ağayevindir.*



LAYİHƏ

# 10

## *Fəsillər*

*Musiqisi Məryəm Əlibəylinin,*
*sözləri Sevinc Nuruqızınındır.*



**I**

Qaranquşlar qayıtdı
Eyvandakı yuvaya.
Bahar gəlib, Novruzu
Gətirdi el-obaya.
İlin dörd övladı var,
Biri bahardır, bahar.

**II**



Hərarətli qoynuna
Yenə aldı bizi yay.
Dedi: "Qonaq gəlmişəm,
Qalacağam düz üç ay".
İlin dörd övladı var,
Yayda kefim kök olar.

**III**



Payız gəldi, yarpaqlar
Oldu qızılı-sarı.
Dərildi bağçaların,
Bağların dadlı barı.
İlin dörd övladı var,
Payızda yağış yağar.

**IV**

Qondu qar dənələri
Kirpiyimə, qaşıma.
İsti əlcək geyindim,
Papaq qoydum başıma.
İlin dörd övladı var,
Qışda boran, qar olar.



### Sual və tapşırıqlar



**1.** 1 bütöv not neçə yarım nota bərabərdir?
**2.** 1 bütöv notda neçə çərək not yerləşir?
**3.** Neçə səkkizlik not 1 bütöv nota bərabərdir?

LAYİHƏ

# Marşlar

Marş təntənəli yürüşü müşayiət edən musiqidir. Marşlar müxtəlif olur – bayram marşları, hərbi marşlar, idman marşları və məktəbli marşları.






4 = 2 + 2 = 1 + 1 + 1 + 1

***Bayram günü***

*Musiqisi Üzeyir Hacıbəylinin, sözləri Mirmehdi Seyidzadənindir.*

LAYİHƏ

# *Azərbaycan əsgəri*

*Musiqisi Reyhan Hacızadənin,*
*sözləri Ülvi Hisslərindir.*

**I**

Qüvvətlidir qolları,
Qırıb tökər kolları.
Keçər çətin yolları,
Azərbaycan əsgəri!

***Nəqərat:***
Qəlbiaçıq, gözütox,
Ona tay, bərabər yox.
Gedər ancaq irəli,
Azərbaycan əsgəri! } *2 dəfə*

**II**

Qürurun tutar yüksək,
Zəifə edər kömək.
Dillərdən düşməyəcək,
Azərbaycan əsgəri!

***Nəqərat:***
Qəlbiaçıq, gözütox,
Ona tay, bərabər yox.
Gedər ancaq irəli,
Azərbaycan əsgəri! } *2 dəfə*



## Sual və tapşırıqlar

1. Bütöv notun ölçüsü neçədir?
2. Yarım notun ölçüsü neçədir?
3. Çərək notun ölçüsü neçədir?
4. Azərbaycan əsgəri haqqında şifahi təqdimat edin.



LAYİHƏ

12

# Can nənə, bir nağıl de

"Göyçək Fatma" nağılını uşaqlar çox sevir. Nağılın baş qəhrəmanı Göyçək Fatma çox ağıllı və zəhmətsevər qızdır.

Göyçək Fatma obrazını bəstəkar Oqtay Rəcəbov "Göyçək Fatma" nağıl-operasında təsvir edib. Operanın mətnini – **librettosunu*** şair Mirvarid Dilbazi yazıb.



***Göyçək Fatma***
*Nağıl-operasından Fatmanın mahnısı*

***libretto** – musiqili səhnə əsərinin ədəbi (yazılı) mətni

LAYİHƏ

## *Nənəm nağıl danışır*

*Musiqisi Sevda İbrahimovanın,*
*sözləri Nəbi Xəzrinindir.*

**I**

Bir sevinc var hər üzdə,
Nənəm nağıl danışır.
Uzanmışıq qum üstə,
Nənəm nağıl danışır.

**II**

Söyüd başını əyir,
İydə üzümə dəyir.
Çinar susub dinləyir,
Nənəm nağıl danışır.

**III**

Bax, ulduzlar göz vurur,
Ay başım üstə durur.
Onlar da sanki duyur,
Nənəm nağıl danışır.

### Sual və tapşırıqlar

1. "Göyçək Fatma" nağıl-operası hansı xalq nağılı əsasında yazılıb?
2. "Göyçək Fatma" nağıl-operasının baş qəhrəmanı kimdir?
3. YouTube üzərindən "Göyçək Fatma" nağıl-operasını dinləyin. Axtarış üçün açar sözlər: Oqtay Rəcəbov, "Göyçək Fatma", nağıl-opera.



LAYİHƏ

13

# Qış gəlibdir, qış gəlib

Mahnılarda qış fəslinin obrazını yaratmaq üçün küləyin, tufanın səsini, qarın, şaxtanın, soyuğun görüntüsünü canlandırmaq lazımdır. Bunları etmək üçün bəstəkarın köməyinə musiqi ifadə vasitələri gəlir.



***Qış mahnısı***

*Musiqisi Əfsər Cavanşirovun, sözləri Tofiq Mütəllibovundur.*

LAYİHƏ

# *Qar rəngi, duman rəngi*

*Musiqisi Reyhan Hacızadənin,*
*sözləri Ülvi Hisslərindir.*



Göydən yerə qar yağır,
Süd kimi ağ rəngi var.
Yağış suyu rəngsizdir,
Sərin mehlər səssizdir.
Külək tozu qaldırır,
Vıyıltılı səsi var.
Göy qurşağı çıxanda
Düz yeddi rəngə çalar.
Qışda qar, yazda bar } *2 dəfə*
Olar duman gələndə.







## Sual və tapşırıqlar

**1.** "Qış mahnısı"nda qış fəsli necə təsvir olunub?
**2.** Qış fəslinin rəngləri hansı mahnının adında öz əksini tapıb?



LAYİHƏ

# Mahnıların müəllifləri

## Fəsillər





**Sevinc Nuruqızı**
*(şair)*

**Məryəm Əlibəyli**
*(bəstəkar)*

## Azərbaycan əsgəri





**Ülvi Hisslər**
*(şair)*

**Reyhan Hacızadə**
*(bəstəkar)*

## Qar rəngi, duman rəngi





**Ülvi Hisslər**
*(şair)*

**Reyhan Hacızadə**
*(bəstəkar)*

## Nənəm nağıl danışır





**Nəbi Xəzri**
*(şair)*

**Sevda İbrahimova**
*(bəstəkar)*

# 14 Sinif konserti

***Azərbaycan Respublikasının Dövlət Himni***
*Musiqisi Üzeyir Hacıbəylinin, sözləri Əhməd Cavadındır.*

***Cücələrim***
*Musiqisi Qəmbər Hüseynlinin, sözləri Tofiq Mütəllibovundur.*

***Azərbaycan***
*Aşıq mahnısı*

***Tut məni, tut***
*Musiqisi Asya Sultanovanın, sözləri Teymur Elçinindir.*

***İdman***
*Musiqisi Oqtay Zülfüqarovun, sözləri Teymur Elçinindir.*

***Nağara***
*Musiqisi Oqtay Zülfüqarovun, sözləri Abdulla Şaiqindir.*



***Mahnı və rəqs***
*Musiqisi Cahangir Cahangirovun, sözləri Mirmehdi Seyidzadənindir.*

***Fəsillər***
*Musiqisi Məryəm Əlibəylinin, sözləri Sevinc Nuruqızınındır.*

***Azərbaycan əsgəri***
*Musiqisi Reyhan Hacızadənin, sözləri Ülvi Hisslərindir.*

***Nənəm nağıl danışır***
*Musiqisi Sevda İbrahimovanın, sözləri Nəbi Xəzrinindir.*

***Qar rəngi, duman rəngi***
*Musiqisi Reyhan Hacızadənin, sözləri Ülvi Hisslərindir.*

LAYİHƏ

# IV bölmə

# İfadəli musiqi aləmi



LAYİHƏ

15

# Azərbaycan xalq çalğı alətləri




**TAR**

Simli alətdir,
mizrabla çalınır.



**DƏF**

Zərb alətidir,
əllə vurularaq çalınır.




**KAMANÇA**

Simli alətdir,
kamanla çalınır.

***Tar, kamança, dəf alətində çalınan musiqi nümunələri***





LAYİHƏ

## *Tarımın mahnıları*

*Musiqisi Oqtay Zülfüqarovun,*
*sözləri Hikmət Ziyanındır.*

**I**

Eyvanda tar çalıram, balam, bala-bala-bam,
Bağçaya səs salıram, balam, bala-bala-bam.
Tarı quşlar dinləyir, balam, bala-bala-bam,
Qaranquşlar dinləyir, balam, bala-bala-bam.

**II**

Tellər dinir, danışır, balam, bala-bala-bam,
Sevincim aşır-daşır, balam, bala-bala-bam.
Oynayır dost, yoldaşım, balam, bala-bala-bam,
Kiçik bacım, qardaşım, balam, bala-bala-bam.



### Sual və tapşırıqlar

1. Kamança nə ilə çalınır?
2. Tar nə ilə çalınır?
3. Mizrabla çalınan daha hansı musiqi alətini tanıyırsınız?



LAYİHƏ

16

# Musiqidə iki lad

## *Major və Minor*

*(Nağıl)*

Biri var idi, biri yox idi. Yer üzündə əbədi qarlar və buzlar ölkəsi var idi. Bu ölkədə bəstəkarlar kədərli musiqi yazar, uşaqlar kədərli nəğmələr oxuyardılar. İnsanlar sevinməz, acı göz yaşları axıdardı. Göz yaşları üst-üstə yığılar, donar, sonra parçalanıb böyük buz dağları şəklində okeanı səyahətə çıxardılar. Mahnılara kədərli ahəng verən cılız, alçaqboylu, qaraqabaq Minor özünü bu işdə günahkar hiss edər, heç kimlə danışmaz, gülməzdi. Günlərin bir günü Minor ölkədən getmək qərarına gəldi:

– Qoy insanlar xoşbəxt yaşasın, şən nəğmələr oxusunlar.

Minor buz dağlarından birinin üstünə çıxıb sürətlə bu diyardan uzaqlaşdı. Bərk külək əsir, ətrafda dalğalar şahə qalxırdı.

...Qəfildən günəş çıxdı, külək əsdi, okean sakitləşdi. Sonra mavi suların qoynunda bir qayıq peyda oldu. Qayıqdan ətrafa şən musiqi yayıldı. Minor boylandı:

– Ey, sən kimsən?

Qayıqdakı hündürboylu, şən səsli və yüksək əhvali-ruhiyyəli oğlan dilləndi:

– Mən Majoram.

Minor həyəcanlandı:

– Dayan, Major, getmə! Sən bizim ölkəyə çox lazımsan. Əbədi qarlar və buzlaqlar ölkəsinə.

Major gülümsədi:

– Harada insanlara lazımamsa, ora getməyə həmişə hazıram. Dostum, tullan qayığa, birlikdə gedək.

...Günlər keçdi. Buzlar ölkəsinə bahar gəldi. Ağaclar çiçəklədi, quşlar şən nəğmə oxudu. Bu ölkənin insanları ilk dəfə idi ki, baharı görürdülər. Onlar sevinir və deyirdilər:

— Yaşasın iki dost: Major və Minor! Biz sizi çox sevirik!

***Sevinc Nuruqızı***




**LAD** – müxtəlif musiqi səslərinin qarşılıqlı əlaqə sistemidir.

LAYİHƏ

**Bunu da bilin**

Major ladında yazılmış mahnılar, adətən, şən, minor ladında yazılan mahnılar isə qəmli səslənir.

## *"Şən mahnı" və "Qəmli mahnı"*

*Musa Mirzəyev*

## *Qırmızı şar*

*Musiqisi Ağabacı Rzayevanın,*
*sözləri Cahangir Məmmədovundur.*

**I**

Böyük qardaşım mənə
Bir şar aldı hədiyyə.
Üstünə ulduz çəkib,
Onu uçurtdum göyə.

***Nəqərat:***
Şarım qalxdı havaya,
Salam apardı Aya.

**II**

Şarım uçdu, hey uçdu,
Bapbalaca göründü.
Göyün lap ortasında
Ağ dumana büründü.

***Nəqərat:***

**III**

Radionu qururam
Oyananda hər səhər.
Görən, nə vaxt şarımdan
Verəcəklər bir xəbər.





**Sual və tapşırıqlar**

1. Major ladında yazılmış mahnılar hansı xarakterli olur?
2. Minor ladında yazılmış mahnılar hansı xarakterli olur?



LAYİHƏ

17

# Laylalar



Körpənin ilk eşitdiyi melodiya ana laylasıdır.

Ananın öz körpəsinin beşiyi başında oxuduğu mahnılara "Layla", "Ninni", "Oxşama" deyilir. Bu mahnılar həzin musiqi nümunəsidir.

***Laylay***
*Fortepiano pyesi*
*Fikrət Əmirov*

LAYİHƏ

## Laylay

*Azərbaycan xalq mahnısı*



**I**

Laylay, balam, yatasan,
Qızılgülə batasan.
Gül yastığın içində
Şirin yuxu tapasan.

***Nəqərat:***
Layla, layla, a layla,
Körpə balam, a layla.

**II**

Laylay, beşiyim, laylay
Evim-eşiyim, laylay.
Sən get şirin yuxuya,
Çəkim keşiyin, laylay.

***Nəqərat:***
Layla, layla, a layla,
Körpə balam, a layla.

### Sual və tapşırıqlar

1. Körpənin ilk eşitdiyi melodiya necə adlanır?
2. "Laylay" mahnısında ana körpəsini əzizləmək üçün hansı sözlərdən istifadə edir?
3. Fikrət Əmirovun "Laylay" fortepiano pyesi ilə "Laylay" Azərbaycan xalq mahnısının hansı oxşar cəhətləri var?



LAYİHƏ

18

# Əziz ana, şirinsözlü ana



Biz ana laylası ilə böyüyürük. Sonra isə özümüz analarımıza mahnılar həsr edirik. Bu mahnılar onlara olan sevgimizdən yaranır.

***Ana***

*Musiqisi Cahangir Cahangirovun, sözləri İslam Səfərlinindir.*

LAYİHƏ

# *Anacan*

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Rəfiq Zəkanındır.*



**I**

Gün çıxdı, güldü göylər,
Nur yayıldı aləmə.
Çünki biz şənlənirik,
Dilimizdə bu nəğmə.

***Nəqərat:***
Deyirik hamımız: "Anacan",
Sevimli mahnımız anacan.



**II**

Quş uçdu yuvasından,
Səsi düşdü aləmə.
Çünki biz şənlənirik,
Dilimizdə bu nəğmə.

***Nəqərat:***
Deyirik hamımız: "Anacan",
Sevimli mahnımız anacan.

## Sual və tapşırıqlar

1. Dinlədiyiniz "Ana" və ifa etdiyiniz "Anacan" mahnıları arasında oxşar cəhətlər hansılardır?
2. Anaya həsr olunmuş daha hansı mahnıları tanıyırsınız?



LAYİHƏ

# Mahnıların müəllifləri

## *Tarımın mahnıları*



**Hikmət Ziya**
*(şair)*



**Oqtay Zülfüqarov**
*(bəstəkar)*





## *Qırmızı şar*



**Cahangir Məmmədov**
*(şair)*



**Ağabacı Rzayeva**
*(bəstəkar)*

## *Anacan*



**Rəfiq Zəka**
*(şair)*



**Rəşid Şəfəq**
*(bəstəkar)*



LAYİHƏ

## V bölmə

# Axar sular aşıb-daşır



LAYİHƏ

19

# Çiçəkli yaz

Yaz təbiət səsləri ilə zəngin fəsildir. Dağlardakı qarların əriməsi nəticəsində sürətlə axan çayların səsi, quşların nəğməsi musiqi melodiyasına bənzəyir.

Bəstəkarlar 4 fəsil haqqında şən nəğmələr yazır.



***Mən baharın qızıyam***

*Musiqisi Ələkbər Tağıyevin, sözləri Zivər Ağayevanındır.*

LAYİHƏ

## Qaranquş

*Musiqisi Ağabacı Rzayevanın,*
*sözləri Teymur Elçinindir.*



**I**

Sən gələndə, qaranquş,
Bu yerlərə yaz gəlir.
Dalınca qatar-qatar
Durna gəlir, qaz gəlir.
Getmə uzaq, qaranquş,
Sinəsi ağ qaranquş. } *2 dəfə*

**II**

Çox ölkələr keçmisən,
Oxu, nəğmən şirindir.
Dünyada ən gözəl yer
Öz yuvan, öz yerindir.
Xoş gəlmisən, qaranquş,
Qalmışdım nigaran, quş. } *2 dəfə*





### Sual və tapşırıqlar

1. Hansı çiçəyə "baharın qızı" deyilir?
2. "Qaranquş" mahnısı ilə "Mən baharın qızıyam" mahnıları arasında olan bağlılıq nədədir?



LAYİHƏ

20

# Baharı qarşılayaq



Bahar dostluq və həmrəylik fəslidir. Onun gəlişi ilə təbiət oyanır. İnsanlar tarlalara çıxır, yer şumlayır, toxum səpir, ağac əkirlər. Əl-ələ verib, yallı gedirlər.

***Yallı***

*Azərbaycan xalq rəqsi*

***Bahar gəlir***

*Musiqisi Fikrət Əmirovun,*
*sözləri Zeynal Cabbarzadənindir.*

**I**

Axar sular aşır-daşır,
Dağ, dərələr yaşıllaşır.
Sevincimiz həddən aşır,
Ay uşaqlar, xoş bahar gəlir.

**II**

Dağda çoban çalır tütək,
Ot otlayır qoyun, inək.
Əsir sərin-sərin külək,
Ay uşaqlar, xoş bahar gəlir.

## Sual və tapşırıqlar

1. "Yallı" rəqsi necə ifa olunur?
2. Bahar fəslinə aid kiçik esse yazın.



LAYİHƏ

# Novruz bayramı

Novruz bayramına həsr olunmuş mahnı və rəqslərdə şən əhvali-ruhiyyə üstünlük təşkil edir. Novruz qəhrəmanları – Keçəl və Kosanın iştirakı ilə musiqili oyunlar keçirilir.

## *Novruzu*

*Azərbaycan xalq rəqsi*

## *Novruz bayramı*

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Rüfət Əhmədzadənindir.*



**I**

Səməni gətirin,
Miz üstünə qoyun, hey.
Kos-kosanı başlayaq,
Gözəldir bu oyun, hey.

***Nəqərat:***
Yaz coşdurur adamı,
Gəlir Novruz bayramı!

### Sual və tapşırıqlar

1. Novruz bayramı hansı fəsildə qeyd olunur?
2. Novruz bayramının qəhrəmanları Keçəl və Kosanın mahnısını yadınıza salın və ifa edin.

LAYİHƏ

# Mənim Azərbaycanım

30 ildən artıqdır ki, Azərbaycanın Qarabağ adlanan ərazisi işğal altında idi. 2020-ci il sentyabrın 27-də başlayan II Qarabağ savaşı noyabrın 8-də böyük zəfərlə bitdi. Torpaqlarımız işğaldan azad edildi. 44 gün davam edən II Qarabağ savaşı Vətən tarixinə qızıl hərflərlə yazıldı. Ordumuzu qələbəyə ruhlandıran mahnı və rəqslər zəfərə gedən yolda öz müsbət təsirini göstərdi.



***Qarabağ***
*Musiqisi Cahangir Cahangirovun,*
*sözləri Rəfiq Zəkanındır.*

LAYİHƏ

## *Azərbaycan –Türkiyə*

*Musiqisi Cavanşir Quliyevin,*
*sözləri Bəxtiyar Vahabzadənindir.*

**I**

Bir millətik, iki dövlət,
Eyni arzu, eyni niyyət. } *2 dəfə*
Hər ikisi cümhuriyyət,
Azərbaycan –Türkiyə. } *2 dəfə*

**II**

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu. } *2 dəfə*
O da ulu, bu da ulu,
Azərbaycan – Türkiyə. } *2 dəfə*



### Sual və tapşırıqlar

1. "Qarabağ" mahnısında Qarabağın gözəllikləri hansı sözlərlə təsvir olunub?
2. Qarabağ haqqında daha hansı mahnıları eşitmisiniz?
3. "Azərbaycan–Türkiyə" mahnısında iki xalqın dostluğunu ifadə edən misraları səsləndirin.



LAYİHƏ

# Mahnıların müəllifləri

## *Qaranquş*



**Teymur Elçin**
*(şair)*



**Ağabacı Rzayeva**
*(bəstəkar)*





## *Bahar gəlir*



**Zeynal Cabbarzadə**
*(şair)*



**Fikrət Əmirov**
*(bəstəkar)*



## *Novruz bayramı*



**Rüfət Əhmədzadə**
*(şair)*



**Rəşid Şəfəq**
*(bəstəkar)*



## *Azərbaycan – Türkiyə*



**Bəxtiyar Vahabzadə**
*(şair)*



**Cavanşir Quliyev**
*(bəstəkar)*

LAYİHƏ

# VI bölmə



# Teatr aləmi

LAYİHƏ

# 23

# Səslənən şəkillər

Şəkilləri dinlədiyimiz musiqi nümunələri ilə əlaqələndirək.



*Təbiət mahnıları*



*Vətənpərvərlik mahnıları*



*Milli rəqslər*

**Ana Kürüm**
*Aşıq mahnısı*

**Əsgər marşı**
*Musiqisi Cavanşir Quliyevin, sözləri Əli Kaminindir.*

**Brilyant**
*Azərbaycan xalq rəqsi*

LAYİHƏ

23

# *Tapın görək*

*Musiqisi Oqtay Zülfüqarovun,*
*sözləri Teymur Elçinindir.*

**I**

Bir qutum var mənim,
Hər gün, hər səhər
Hər quranda onu
Çalar, dillənər.

***Nəqərat:***
Tapın görək nədir,
Nədir bu, uşaqlar?
Tapdınız?

**II**

Pambıq kimi göydən
Düşər qupquru.
Gün dəyəndə ona
Olar dupduru.

***Nəqərat:***
Tapın görək nədir,
Nədir bu, uşaqlar?
Tapdınız?

**III**

Bir quşum var,
Səsi düşüb dünyaya.
Aparacaq məni
Bir gün o, Aya.

***Nəqərat:***
Tapın görək nədir,
Nədir bu, uşaqlar?
Tapdınız?









## Sual və tapşırıqlar

1. "Tapın görək" mahnısı oynaq, sakit, yoxsa həyəcanlı səslənir?
2. Şəkillərə baxıb "Tapın görək" mahnısında tapmacaları cavablandırın.

LAYİHƏ

24

# Sehrli çubuq



Orkestrə dirijor rəhbərlik edir.

Orkestrdəki musiqiçilər dirijorun əlindəki çubuqla etdiyi hərəkətə uyğun olaraq öz ifalarını başlayır, dirijorun etdiyi hərəkətə uyğun olaraq da öz ifalarını sona çatdırırlar.

Notların ölçülərinə əsasən dirijorluq edək.

*Yarım not* = *2 və*



*Çərək not* = *1 və*






**TEMBR** – səsin rəngidir.



LAYİHƏ

## *"Cəngi" rəqsi*

*"Koroğlu" operasından*
*Musiqisi Üzeyir Hacıbəylinindir.*

## *Vətənimin əsgəri*

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Alimşah Teymurlunundur.*

**I**

Namus mərdi çağırır,
Vətən oğlu, oyan sən.
Şəhid ruhu hıçqırır,
"Torpaq", – deyib, dayan sən.

***Nəqərat:***
Vətənimin əsgəri,
Vətənimin əsgəri.

**II**

Sıxılmış yumruqların
Başa enən gürz olsun.
Düşmənlərin canına
Əsim-əsim lərz olsun.

***Nəqərat:***
Vətənimin əsgəri,
Vətənimin əsgəri.



### Sual və tapşırıqlar



1. Orkestri kim idarə edir?
2. "Cəngi" rəqsi hansı operadandır?
3. "Vətənimin əsgəri" mahnısında əsgərlərin igidliyi hansı sözlərlə ifadə edilib?

LAYİHƏ

25

# Kukla teatrı





**Azərbaycan Dövlət Kukla Teatrında** azyaşlı uşaqlar, məktəblilər üçün tamaşalar göstərilir.



***Şəngülüm, Şüngülüm, Məngülüm***

*Tamaşadan bir hissə*

LAYİHƏ

# *Balaca keçilərin kupletləri*

***"Şəngülüm, Şüngülüm, Məngülüm"** tamaşasından*
*Musiqisi Sərdar Fərəcovun,*
*librettosu Hüseynağa Atakişiyevindir.*

**Şəngül:**
Şəngüləm, gözlərim qara,
Bənzəyirəm ceyranlara.
Şəvə tüküm buruq-buruq,
İncə baldır, qısa quyruq.
Yeni çıxmış buynuzlarım,
Buxağımda qotazlarım.
Bir yaşında maral çəpiş,
Bacaqlarım bir dal çəpiş.
Şəngüləm, Şəngüləm, Şəngüləm.

**Şüngül:**
Şüngülün gözləri nərgiz,
Sanki dünyadan xəbərsiz.
Gecə-gündüz oynaqlaram,
Öz anamı qucaqlaram.
İpək tükü bəyaz, yumşaq,
Qulaqlarım sanki zanbaq.
Alnındakı qaşqa gözəl,
Yoxdu məndən başqa gözəl.
Şüngüləm, Şüngüləm, Şüngüləm.

**Məngül:**
Hələ bircə Məngülə bax,
Ayağında şəklə bax.
Yoxdur belə gözəl çəpiş,
Nazlı çəpiş, təpəl çəpiş.
Yumşaq tükü ala-bula,
Tamamilə başabəla!
Yoxdu belə gözəl çəpiş,
Nazlı çəpiş, təpəl çəpiş.
Məngüləm, Məngüləm, Məngüləm.




**REGİSTR** – səs diapazonunun eyni tembrdə olan hissəsidir.

## Sual və tapşırıqlar

1. "Balaca keçilərin kupletləri" hansı tamaşadandır?
2. Librettodan olan Şəngül, Şüngül, Məngülün sözlərini oxuyub, təsvir edin.



LAYİHƏ

# 26

# Musiqini yaradan intonasiya




Göy qurşağının 7 əsas rəngi, musiqinin 7 əsas notu olduğu kimi, intonasiyanın da 7 tərkib hissəsi var. Melodiya, dinamika, tembr, lad, registr, ritm, temp intonasiyanın tərkib hissələridir. Onlar olmasa, musiqi əsəri yaranmaz.

***Çobanın mahnısı***
*Musiqisi Oqtay Zülfüqarovun, sözləri Abdulla Şaiqindir.*

LAYİHƏ

## *İkincilərik biz*

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Əjdər Ağayevindir.*



**I**

Geniş otağımız var,
Tərtəmizdir partamız.
Müəllimi həvəslə
Dinləyirik hamımız.

***Nəqərat:***
İkincilərik biz,
İkincilərik biz. } *2 dəfə*

**II**

Səyahətə çıxırıq,
Oxuyuruq, yazırıq.
Keçdiyimiz dərslərə
Biz həmişə hazırıq.

***Nəqarət:***
İkincilərik biz,
İkincilərik biz. } *2 dəfə*

### Sual və tapşırıqlar

**1.** İlboyu topladığımız ləçəklərdən alınan çiçəyi necə adlandıra bilərik?
**2.** Bu çiçəyin ləçəklərinin adlarını sadalayın.



LAYİHƏ

# 27



# Musiqi alətlərinin sehrli səsləri

Musiqi alətlərində 3 fərqli melodiya bir yerdə səslənə bilər. Belə ifaya 1 səsli, 2 səsli və 3 səsli ifa deyilir. Bunun üçün "Play market"ə daxil olun. Səhifələri şəkildəki ardıcıllıqla açın.




Əvvəlcə tütəyi (6), trubanı (8), skripkanı (7) səsləndirin. Sonra isə növbə ilə digər alətləri. Alətlərin ifasını bu ardıcıllıqla öncə səsləndirin, sonra isə dayandırın.

**Səslənmə:** 1,2,3,4,5,6,7,8,9 **Dayandırılma:** 9,5,4,8,6,3,1,7,2






## Sual və tapşırıqlar

**1.** Bu üsulla daha hansı alətləri səsləndirə bilərik?



LAYİHƏ

# Mahnıların müəllifləri

## Tapın görək



Teymur Elçin (şair)



Oqtay Zülfüqarov (bəstəkar)

## Vətənimin əsgəri

Alimşah Teymurlu (şair)



Oqtay Rəcəbov (bəstəkar)

## İkincilərik biz



Əjdər Ağayev (şair)



Oqtay Rəcəbov (bəstəkar)

## Balaca keçilərin kupletləri



Hüseynağa Atakişiyev (şair)



Sərdar Fərəcov (bəstəkar)

28

# Sinif konserti

***Tarımın mahnıları***
*Musiqisi Oqtay Zülfüqarovun, sözləri Hikmət Ziyanındır.*

***Qırmızı şar***
*Musiqisi Ağabacı Rzayevanın, sözləri Cahangir Məmmədovundur.*

***Laylay***
*Azərbaycan xalq mahnısı*

***Anacan***
*Musiqisi Rəşid Şəfəqin, sözləri Rəfiq Zəkanındır.*

***Qaranquş***
*Musiqisi Ağabacı Rzayevanın, sözləri Teymur Elçinindir.*

***Bahar gəlir***
*Musiqisi Fikrət Əmirovun, sözləri Zeynal Cabbarzadənindir.*



***Novruz bayramı***
*Musiqisi Rəşid Şəfəqin, sözləri Rüfət Əhmədzadənindir.*

***Azərbaycan –Türkiyə***
*Musiqisi Cavanşir Quliyevin, sözləri Bəxtiyar Vahabzadənindir.*

***Tapın görək***
*Musiqisi Oqtay Zülfüqarovun, sözləri Teymur Elçinindir.*

***Vətənimin əsgəri***
*Musiqisi Oqtay Rəcəbovun, sözləri Alimşah Teymurlunundur.*

***Balaca keçilərin kupletləri***
*Musiqisi Sərdar Fərəcovun, librettosu Hüseynağa Atakişiyevindir.*

***İkincilərik biz***
*Musiqisi Oqtay Rəcəbovun, librettosu Əjdər Ağayevindir.*

LAYİHƏ

# Mündəricat

**I. AZƏRBAYCAN MƏNİM VƏTƏNİMDİR**
**1.** Melodiya ........ 6
**2.** Mahnıda söz ........ 8
**3.** Salam, mənim Vətənim! ........ 10
**4.** Himn ........ 12

**II. SEHRLİ DÜNYA**
**5.** Fortepiano aləmi ........ 16
**6.** Musiqi notlarını tanıyaq ........ 18
**7.** Gəzinti ........ 19
**8.** Ritmsiz musiqi yoxdur ........ 20
**9.** Azərbaycan xalq rəqsləri ........ 22

**III. QIZILI PAYIZ**
**10.** Təbiət və musiqi ........ 26
**11.** Marşlar ........ 28
**12.** Can nənə, bir nağıl de ........ 30
**13.** Qış gəlibdir, qış gəlib ........ 32
**14.** Sinif konserti ........ 34

**IV. İFADƏLİ MUSİQİ ALƏMİ**
**15.** Azərbaycan xalq çalğı alətləri ........ 36
**16.** Musiqidə iki lad ........ 38
**17.** Laylalar ........ 40
**18.** Əziz ana, şirinsözlü ana ........ 42

**V. AXAR SULAR AŞIB-DAŞAR**
**19.** Çiçəkli yaz ........ 46
**20.** Baharı qarşılayaq ........ 48
**21.** Novruz bayramı ........ 49
**22.** Mənim Azərbaycanım ........ 50

**VI. TEATR ALƏMİ**
**23.** Səslənən şəkillər ........ 54
**24.** Sehrli çubuq ........ 56
**25.** Kukla teatrı ........ 58
**26.** Musiqini yaradan intonasiya ........ 60
**27.** Musiqi alətlərinin sehrli səsləri ........ 62
**28.** Sinif konserti ........ 63

LAYİHƏ

## BURAXILIŞ MƏLUMATI

**MUSİQİ 2**
*Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün*
*Musiqi fənni üzrə*
**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | ***Oqtay Məmmədağa oğlu Rəcəbov*** |
| | ***Nazim Kazım oğlu Kazımov*** |
| | ***Reyhan Təvəkkül qızı Hacızadə*** |
| Redaktor | ***Sevinc Nuruqızı*** |
| Bədii və texniki redaktor | ***Abdulla Ələkbərov*** |
| Dizayner | ***Firuzə İbrahimova*** |
| Korrektor | ***Ülkər Tağıyeva*** |
| Rəssam | ***Firuzə Gərayqızı*** |

**Dərsliyə rəy verən təşkilatlar:**
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası,
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat,
Nəsimi adına Dilçilik institutları



**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi:______)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 6,8. Fiziki çap vərəqi 8,0.
Formatı 57x82 1/8. Kəsimdən sonra ölçüsü: 195x275.
Səhifə sayı 64. Şriftin adı və ölçüsü: jurnal qarnituru, 16-20 pt.
Ofset kağızı. Ofset çapı. Sifariş .
Tiraj . Pulsuz. Bakı—2021.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:**

Nəşri hazırlayan və istehsal edən:
**"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 121a (149))


LAYİHƏ

**PULSUZ**

LAYİHƏ